

Müdrik hökmdarlar ta qədimdən xalqın başında möhkəm durublar — ona görə ki, xalq dediyin əhali əkin-biçinlə məşğul olub. Əkinçilik təkcə torpaqdan xeyir götürmək deyil, həm də xalq ruhunun salamatlığıdır. Torpağa başını qatan xalq adətən dinc durar, sabit olar; sabit olan xalq təkcə şəxsi mənfəətini güdməz. Və belədə xalqın gücü bir səmtə yönələr. Camaat torpağı əkib-becərsə, ölkədə bolluq baş alıb gedər. Bolluq olarsa, camaat ruzi dalınca bir yerdən başqa yerə, bir şəhərdən o biri şəhərə, ya bir kənddən o biri kəndə köçməyi tərgidər, ölən gündə də hər kəs öz yurdunda rahatlıqla gözünü yumar...

DAO-sindən...

Elçin Muxtar ELXAN

# "XANXAN" OYUNLARI

Milli xalq tamaşa və oyunlarımıza yaxşı bələd olan görkəmli ədibimiz Mirzə Fətəli Axundzadə onların bir sıra üslub və ifadə tərzinə diqqət yetirib, vaxtilə el-obada oynanılan ellik tamaşalarından bəhrələnmək fikrinə düşmüş, öz komediyalarının mayasını, bir qayda olaraq milli meydan teatrı repertuarında rast gəlinən məzəli səhnəciklərdən götürmüşdür. Tiflisdə yerli teatr tamaşalarına baxan ədibin avropasayağı professional dramaturgiya ilə tanışlığı onun işini müəyyən qədər yüngülləşdirmişdi. Qafqaz canişini qraf Voronsovun milli teatr yaratmaq haqqında qərarı isə, Mirzə Fətəlinin dram yazmaq arzusunu həqiqətə çevirdi. Onun "*Sərgüzəşti-vəziri-xani-Lənkəran* komediyası və digər təmsilatında xalq tamaşalarından gen-bol istifadəsi inkaredilməzdir.

El içində gəzib dolaşan qədim tamaşalardan biri **Xanxan** oyunudur. Yurdumuzun ayrı-ayrı yerlərində bu tamaşaya xalq arasında "*Xan oyunu" (Xanbəzəmə, Xantikdi, Xanetdi, Xanyaratdı* da demişlər. Tamaşanın digər - *"Şahşah"ı (Padşah-Vəzir, Mirü-vəzir*, yaxud *Əmir-Vəzir, Xan-Vəzir, Bəy-Vəzir adları da məlumdur.)* və nəhayət, Füzuli, Laçın və Qubadlı bölgələrində bu tamaşaya "*Şahbəzəmə*" də demişlər.

Ümumi qənaətə görə, əski çağlardan bəri el-oba içində icra olunub hazırda Cənubi Azərbaycanda oynanılan qədim **Mirnovruzi** (onun sonrakı adı *Mirbazi, Miribazi,* yəni "Əmir oyunu"dur) tamaşası şübhəsiz, Xanxan oyununun sələfi sayılmalıdır. Belə ki, əsasən mübarək Novruz günü ərəfəsində, sonralarsa toy şənliklərində icra olunan həmən oyundan ötrü, bir qayda olaraq, əhali arasından gözəl rəftarlı, xoş görkəmli bir şəxsi müvəqqəti olaraq "saxta" hökmdar, necə deyərlər, "bir saatlıq xəlifə" - "*mirmiran (mirmirən*, yəni "əmirlər əmiri"), yaxud "*mirnovruz*" (üçgünlük bayram hakimi, ya sərəncamçısı — "əmir ən-nauruz" seçilmiş (ya elan olunmuş), onun üz-gözünü una bulayıb, başına tovuz lələyi sancılmış bir tac keçirdikdən sonra, qırmızı, ya sarı xələtdə,



əlində qızılquş, ya özünəməxsus bir təmtəraqla meydanın yuxarı başında qurulmuş üçgünlük "əmirlik taxtı"nda oturtmuş, *vəzir-vəkil* də gəlib taxtın sağ-solunda əyləşmişlər. Yaraqlı-yasaqlı *fərraşlar* isə, mirnovruzun hüzurunda əmrə müntəzir dayanmışlar. Meydanın aşağı başında, qırmızı libas geymiş, əli korş baltalı "*cəllad*" gözləmişdir. Tamaşanın əsas iştirakçılarından başqa; burda şikayətçilər, günahkarlar, fərraşlar və s. də olubdur.

Əvvəlcə ətrafdakılar təbrik üçün *mirnovruzun* hüzuruna gələrək onun əlini öpmüş, ətəyindən tutub, itayət bildirmişlər. Deyilənə görə, o ilk növbədə bayram münasibətilə qanlıları, ya küsülüləri barışdırmış, qanunsuz həbs olunanları zindandan qurtarmağı vəd etmişdir. Ardınca, taxta qalxmaqla artıq külli-ixtiyar olmuş (ənənəyə müvafiq, hakim dairələr bu səlahiyyətləri ona qanuni şəkildə və qısa müddətə verirmişlər) **mirnovruz** özünəməxsus bir "ədalət divanı" sayılmışdır. Sonra o, həqiqi hökmdarı yamsılayaraq xalqın şikayətlərini dinləmiş, günahkarları ədalət divanına çəkib bu və ya digər varlının əmlakını müsadirə etməklə cəza vermiş, bir sıra mübahisəli məsələlərə əncam çəkmiş, adəti üzrə bir-iki şallaq vurmaqla, hətta bığlarını qırxmaqla onları el içində rüsvay etmişlər.

O, hökm verərkən adəti üzrə "vəzir-vəkil"lə məsləhətləşər və ən igid fərraşlar da mirnovruzun buyruqlarını can-başla, dərhal yerinə yetirərdi. Bəzən ən varlı, hörmətli qazını, valini yatağından oğurlayıban meydana gətirmişlər. Əski yazılara görə, həmən "tamaşanın" ardınca üçgünlük bayram hakimini ulağ üstə, bazar nəzarətçisi "möhtəsib" kimi əlində dəftər küçə-bazarları gəzdirib varlılardan "novruzpayı" toplayar, verməyənlərin üstünə su tökər, ya da onların libasını qırmızı palçığa bulamışlar. Vaxtilə həmən "Mirnovruzi" oyunu o qədər məşhur olubdur ki, hətta ən hörmətli ağalar, vəzifəli şəxslər belə "bir saatlıq xəlifə"nin cəzalarından qorxub gizlənərmiş...

Onu da qeyd etməliyik ki, "Mirnovruzi" oyunu da öz növbəsində qədim Babilistandakı **Yazgütəni** bayramında icra olunan bir adətin xələfidi. Belə ki, burada bayram günü hakimiyyət başında duran şəxslər öz nazirlərilə birlikdə Babil şəhərini tərk edib bununla, sən demə, rəiyyətə öz narazılıqlarını, şikayətlərini ucadan bəyan etmək üçün imkan yaratmışlar. Əski yazılara görə, bu bayram ərzində həmçinin ağalar öz qullarının xidmətində durmuş, dövlət başçısını isə əhali arasından seçilmiş müvəqqəti "yalançı şah" əvəz etmişdir. Şübhəsiz, M.F.Axundzadənin "Aldanmış kəvakib" povestində Şah Abbas-əvvəlin hakimiyyəti zamanı yenə Novruz bayramının üçüncü günü baş vermiş hadisələr, həmin "bir saatlıq xəlifəlik" mövzulu əski adət-ənənənin əks-sədasıdır.

Sonrakı Xanxan sayağı oyunlarda da, bir ənənə olaraq yenə el arasından ədalətli, düznəqulu, sözü keçən birisi — "Xan" seçilməliydi. Bu məqamda kəndin ən möhtərəm ağsaqqalı ortaya çıxar, üzünü meydana yığışanlara tutaraq deyərdi:

- *Ay camaat, bu mübarək Novruz bayramı günündə bir Xan seçməliyik. Onun da gərək vəzir-vəkili, üç fərraşı, bir də cəlladı olsun!*

Adamlar yerbəyerdən:

- *Xanımız olsun başmağçı Mərdan, vəzirimiz də korükçü Əli.* və bu minvalla beləcə...

Yaxud, tamaşa başlamazdan əvvəl vəzirliyə seçilmiş şəxs camaata müraciət edərdi:

- *Ölkəyə təzə hakim gəlib, ədalətlə divan edəcək, kimin şikayəti var, buyurub gəlsin!*

Ardınca, əski "Mirnovruzi" oyununda olduğutək, divan-dərəbə qurular, ortaya

müxtəlif şikayətçilər gəlib, çox vaxt da ayrı-ayrı tacirlərdən, sələmçilərdən, kəndxudadan və sairədən Xana şikayətlənərdi. Xan onları dinləyər, sonra onun hökmü ilə ayrı-ayrı şəxslər divana gətizdirilər, haqsızlar "döydürülər", günahkarlar cəzalanardı... Məsələ burasındadır ki, əgər əski çağlar "Mirnovruzi" oyunu ciddi tərzdə təqdim olunurdusa, sonrakı "Xanxan" oyunları artıq həmən "Mirnovruzi"nin məzəli bir parodiyası kimi ortaya çıxar, hərə öz vəzifəsini, daha doğrusu "rolu"nu, bir qayda olaraq məzəli şəkildə icra edərdi.

XX yüzilə kimi Qubadlı və Füzuli rayonlarında bir qayda olaraq, Novruz şənlikləri zamanı əcəcən qız-gəlin tərəfindən icra edilən **Şahbəzəmə** (bu "bəzəmə" — oxşatma, bənzətmə, təqlidetmə mənasındadı), yaxud **Şah oyunu (Şahşahı)** tamaşası, əslinə qalarsa yenə həmən Xanxan oyununun bir başqa variantı olub, deyək ki, bu oyuna sonralar verilmiş addır. Sən demə, bu zaman yeni il münasibətilə Şahbəzəmə tamaşasını oynamaq üçün məhəllə qadınları bir evə yığışıb öz aralarından hörmətli, ədalətli, düşüncəli, diribaş və çalışqan bir xanımı "Şah" seçər, onu al-əlvan geyindirib "taxtda" otuzdurar, üç gün, üç gecə onunla birgə məzələnərdilər. Elə həmin məclisdə də qadınlar *vəzir-vəkil*, bir neçə *çavuş* və xidmətçi seçərmiş. Hətta yoldan ötənlər belə bu tamaşaya qatılmalıydı. Boyun qaçıranlar cəzalanardı...

Görürsən, burda Şahxanım əmr edərdi ki, "filankəs gözümə dəymir, gedin onu gətirin". Şahxanımın əmriylə adamlar, bir qayda olaraq ya sorğu-suala tutular, incidilər, ya da cərimə olunardılar.

Sonralar toy və şənliklər zamanı subay gənclərin "durğuzduqları" bir tamaşa da **Xanxan** adı daşıyıb. Oxşar oyunlardan fərqli olaraq, burdakı iştirakçılardan püşkatma yolu ilə yenə də *Xan*, ya *Padşah, Vəzir, Vəkil, Yasavul, Fərraş, Cəllad (Mirqəzəb)* "vəzifə-rollar"a ifaçılar seçilirdi. Hərə öz vəzifəsini məzəli şəkildə icra edir, burda da yenə müxtəlif "şikayətçilər" peyda olur, Xan haqsızlara "cəza" verirdi (həmin adama xas olmayan oynamaq, oxumaq, banlamaq, bir qıç üstdə müəyyən qədər yerimək və s.).

Yaxud, Quba-Dərbənd zonasında yayılmış və yenə püşkatma yolu ilə oynanılan Xanxan oyununun digər bir variantında artıq on nəfər kişi bir yerə yığışıb, püşk atırlar. Bu püşkə *görə vəzifələr bölünür. (Xan, Vəzir, Cəllad, Oğru).* Xan "taxta" çıxıb onun divanı başlayanda şikayətçilərdən biri onun kəndxuda tərəfindən incidildiyini bildirir, başqa birisi malının oğurlandığını söyləyirdi və sairə. Rəiyyəti incidən kəs, ya mal oğrusu "hüzura" gətirilər, ağaca sarınar, oğrudusa onun "sol əli kəsilərdi".

Abşeron əhlinə xas olan digər **Xanvəzir (Oğrunu tap)** oyununda isə, əcəcən dörd nəfər iştirak edirdi. Burada dörd kağız parçasına *"Xan", "Vəzir", "Tapan"* və *"Oğru"* sözlərini yazıb qarışdırar, sonra da çəkərdilər. Bəzən "Cəllad" deyə beşinci iştirakçı da olurdu.

*"Tapan"ı* çəkən adam qalan dörd nəfərin arasından Oğrunu tapıb, *"Oğru sənsən"* — deməliydi. Oğru tapılıbsa, o, cəzasına çatmalıydı. Cəzanı Xan müəyyən edir, Vəzirsə əmrin icrasına göz qoyurdu. Adətən "cəza" çox yüngül olurdu. Məsələn, gedib filankəsin bağından alma, ya üzüm dərib gətirmək, yaxud filankəsin evinin divarına əl vurub qayıtmaq, ya da nisbətən müşkül — gecədirsə, filankəsin qəbrinin üstünə oxlov sancmaq...






Şimal-qərb rayonlarımızda yaz, yay və payız mövsümü şənlikləri zamanı elliklə keçirilən və büsbütöv "*Xanxan*" oyununu xatırladan **Gizir** (*kəndxuda əlaltısı - "onbaşı"nın digər adıdır*) tamaşası uşaqların icra etdiyi süjetli bir oyunun əvvəlində isə, aşıq-maçanın köməyilə *Xan, ya Şah, Gizir* (Yasovul) və *Oğru* kimi "vəzifə"lər müəyyən edildikdən sonra Gizir Şaha:

- *Şah sağ olsun, mən bir oğru tutmuşam!* — deyəndən sonra oyun başlardı...

El ədəbiyyatı və XVI-XVII yüzillərin tarixi qaynaqlarında təsadüf edilib, **Divan oyunu** adı (başqa adı "*Doanoyunu*") daşıyan "Xanxan" oyununun digər özünəməxsus bir şəkli də olub. Meydanların birində, adətən bazarlarda, *keçəl* ("tanınmasın" deyə, ötənlərdə gözlərinə sürmə çəkib çöhrəsinə ənlik-kirşan, yumurta sarısı, yaxud ağ, ya ət rəngli toz sürtüb, başına qoyun qarnı keçirən və ya üzünə üzlük-maska taxmış şəxs" anlamında işlənən ("kəhhal, keçhal, keçəl" deyimi bir vaxtlar müasir "oyunçu, aktyor" mənasında işlənmişdir-E.), bir də *lotu* oyunçu dəstəsi ədalətsiz həll olunan hadisəni tamaşa şəklində oynayıb hökmün haqsız olduğunu isbata yetirməyə cəhd göstərmişdir.

Belə ki, "Salehlə Valeh" adlı bir xalq nağılında iki qardaş arasında baş vermiş münaqişədən, Şah Abbasın bu münaqişənin həqiqətinə varmadan, onu haqsızcasına həll etməsindən, "*Qırxkeçəl*" adlı dəstənin haqqı üzə çıxarmasından danışılır. Bu niyyətlə həmən keçəl dəstəsi şəhər meydanlarının birində daşdan hörülmüş səki üzərində "*Divan oyunu*" göstərir.

Burada ilk əvvəl başında kağız tac, əynində "şah libası" olan keçəllərdən biri səkinin yuxarı başında qoyulmuş bir daş üstə əyləşir,



iyirmiyə yaxın oyunçu-*keçəl* onu dövrəyə alaraq yerdə bardaş qurub oturur. Meydan adamlarla dolduqdan sonra "Divan oyunu" başlayırdı...

Tamaşanın sonunda isə keçəllər şahı ayağa qalxıb divanın qərarını elan edir. Belə ki, həmin qərara görə münaqişəni yoxlamayıb hökm verdiyi üçün doğrucu şah, yəni Şah Abbas özü qardaş və onun arvadından üzr istəməli, hökm üç günə qədər yerinə yetirilməliydi. Qırx keçəlin "Divan oyunu" bununla da bitirdi. Sən demə, aktyor istedadına malik olub tez-tez "dərviş-libas" olan Şah Abbas-əvvəl özü uzaqdan bu qəribə "divan oyunu"nu seyr edib utandığından tər tökübmüş və s.

Sonrakı dövrlərdə "*tənbəki*" ("*tənbehi, tənbeh oyunu*" anlamındadı), yaxud "*tövbələtmə oyunu*", eləcə də "*pişik toyu*" və bu kimi "Divan oyunu"nun ardıcılları meydana gəlmişlər.

Onu xatırladaq ki, əvvəl 1852-1853-cü illərdə Tiflisdəki rus teatrın-da, 1873-cü ildə isə Bakıda oynanılmış M.F.Axundzadənin "*Lənkəran xanın vəziri*" pyesinin üçüncü məclisindəki divanxanada baş verən hadisələr, oradakı "ərizəçilər", "fərraşlar", demək olar ki, eynilə qədim **Xanxan** oyununun oxşarıdır.

Əslinə qalarsa, əski xalq tamaşa və oyunlarımızın özünəməxsus və fərqli cəhətlərini özündə qoruyub saxlamış "*Lənkəran xanın vəziri*" milli teatrımızın ilkin əsəritək (Azərbaycan teatrının tarixi onunla başlayır), müasir milli teatrımızın "vizit vərəqəsi", "bayrağı" olmalı, heç vaxt səhnədən düşməməli və hər yeni teatr nəsli onu dövrün zövqünə uyğun səhnədə canlandırıb daima yaşatmalıdır.

***

İndi isə keçək əsl mətləbə. Öncə onu deyək ki, son zamanlar sabiq ellik tamaşaların avropasayağ teatrlardan fərqli olan özünəməxsus xüsusiyyətləri ətrafında tez-tez ciddi mübahisələr gedir. Bir sıra mütəxəssislər bu işin köhnəldiyini bildirib bu günə gətirilməsini qeyri-mümkün sayırlar. Digərləri isə o fikirdədir ki, milli teatrımızın dirçəlməsinə, teatrsevərlər arasında onun nüfuzunun qaytarılmasına bu təşəbbüs təkan verə bilər.

Əski milli xalq tamaşalarındakı aktyor oyun tərzi, Şərq teatrına məxsus təkrarolunmazlıqi, şərti tərtibat və digər cəhətlər ciddi şəkildə araşdırılarsa, çox maraqlı cəhətlər üzə çıxar və müasir teatr səhnəsinə yeni nəfəs gətirmək olar. Xüsusən klassik dramaturgiyamızın (bu dramaturgiyanı "Stanislavski sistemi"ndə quruluş verməyin özü qəbahətdir) səhnə quruluşlarında. Bu həm başqalarının marağına səbəb ola bilər, həm də həqiqi milli teatrımızın tədricən itib batmasının qabağını alar.

*"Lənkəran xanın vəziri"* əsərinə müraciət edək.

Tamaşanın lap əvvəlində əlində badyə (sonda onu vəzirin başına keçirəcəklər) tutmuş Pəri xanım, onun yanında isə əllərində Xan, Vəzir və Teymur ağanın papağ-libası olan siniləri tutmuş üç qaravaş qız səhnə geyimlərində aramla ön səhnəyə daxil olurlar. Ardınca, Pəri xanım əlindəki badyəni qaldırıb ağzını aşağı tutur, bununla tamaşaçılara onun tamam boş olduğunu nümayiş etdirir. Sonra üç burulmuş kağız zolağı "tumar" çıxarıb onları bir-bir açaraq, birində **Xan**, o birisində **Vəzir**, digərində isə **Teymur ağa** yazıldığını tamaşaçılara göstərir. Sonra tumarları yenidən büküb badyəyə atır.

Bundan sonra bugünkü tamaşada Xan, Vəzir və Teymur ağa rollarını oynamaq iddiasında olan üç aktyor səhnəyə çıxır. Aktyorlardan İkisi növbə ilə əllərini Pəri xanımın əlindəki badyəyə salır, hərə ordan bir tumar çıxarıb açır, tamaşaçılara göstərirlər. Ardınça hər ikisi növbə ilə, qaravaş qızların əllərində tutduğları sinilərdən püşkün göstərdiyi rol üçün gərəkli papağ və libası (bunların arasında maska da ola bilər) götürüb, ucadan: *"Xan sağ olsun, yüz il xanlıq eyləsin!!"* — deyərək, səhnədən



çıxırlar. Təbiidir ki, badyədə qalmış tumarın yazısını artıq müəyyən etmiş üçüncü aktyor sonuncu sinidə qalmış rolun geyimini götürüb geyinmək üçün pərdə arxasına keçir. Sonra Pəri xanım özü üçüncü tumarı çıxarıb badyənin artıq tam boş olduğunu tamaşaçılara göstərir və üç qaravaşla birgə səhnəni tərk edir.

Burada əski xalq oyunlarında istifadə olunan "püşkatma" və onun mabədi müasir teatr üçün təzə və orijinal bir priyomdur; istər aktyor, istər tamaşaçı üçün bu iş nə qədər çətin və maraqlı olsa da, tam fərqli yozum cəhdi hər bir aktyoru sənətdə həmkarı ilə bəhsə girməyə vadar edir, eyni vaxtda bu müasir teatr pərəstişkarları və mütəxəssislərin ciddi marağına səbəb olub, istər-istəməz, tez-tez teatrın növbəti tamaşasına gəlməyə həvəs yaradar...

Buna əlavə olaraq deyək — bugünkü müşahidələr göstərir ki, ümumilikdə keçmişin tamaşaçılarından fərqli olaraq, teatr və televiziya tamaşalarının hazırlanması "mətbəxi"nə çox yaxşı bələd olan müasir tamaşaçılar hardasa özləri bu yaradıcılıq prosesinə qoşulmağa, müdaxilə etməyə iddialıdır. Bu gün bu "xüsusiyyət" mütləq nəzərə alınmalıdır.

Və nəhayət demək lazımdır ki, bu gün teatr sənətimizdə axtarışı, yeniliyi sevən rejissorlara ehtiyac duyulur ki, bu yolla unudulmuş və təkrarolunmaz həqiqi Azərbaycan milli teatr ənənələrini bərpa etməyə cəhd göstərsinlər...

◆